Əpoş VƏLİYEV
Filologiya üzrə fəlsəfə doktoru
"Qərbi Azərbaycan folkloru" şöbəsinin
aparıcı elmi işçisi
E-mail: elyarvelisoy@mail.ru
ORCID ID: https://orcid.org/0009-0004-0934-2645
https://doi.org/10.59849/2309-7949.2026.2.90

OD ÇƏRŞƏNBƏSİ VƏ FOLKLORDA OD KULTU

Xülasə

Açar sözlər: Novruz bayramı, od çərşənbəsi, folklor, od kultu, etnoqrafiya, tonqal, ritual.

АННОТАЦИЯ
«ОД ЧЕРШЕНБЕСИ» И КУЛЬТ ОГНЯ В ФОЛЬКЛОРЕ

В статье исследуются мифологические, этнографические и фольклорные аспекты «Од Чершенбе» в контексте праздника Новруз, является неотъемлемой частью древнего культурного наследия азербайджанского народа. Подчеркивается особая роль «Од Чершенбе» в системе обрядов, основанной на четырех основных элементах - вода, огонь, ветер и земля. Анализируется значение огня в жизни древнего человека как в бытовом, так и в ритуальном контексте, а также верования, связанные с культом Солнца и огня в тюркском мировоззрении, на основе научных источников. Традиции разведения костров и проведение обряда «Коду-коду» рассматриваются как социальные, коммуникативные и коллективные ритуальные функции. Поговорки, поверья и благословения демонстрируют символическое значение огня и очага. Делается вывод, что «Од Чершенбе» сохраняет преемственность древнего мифологического мышления, а культ огня несет очищающее, охранительное и объединяющее семантическое значение.

Ключевые слова: Новруз, «Од Чершенбе», фольклор, культ огня, этнография, костер, ритуал.

ABSTRACT
"OD CHERSHENBE" (FIRE WEDNESDAY)
AND THE FIRE CULT IN FOLKLORE

The article examines the mythological, ethnographic, and folkloric aspects of Od Chershenbe within the context of Novruz, an integral part of the ancient cultural heritage of the Azerbaijani people. The special role of "Od Chershenbe" in the ceremonial system based on the four primary elements of creation – water, fire, wind, and earth - is emphasized. The study analyzes, based on scholarly sources, the significance of fire in ancient human life both in domestic and ritual contexts, as well as beliefs associated with the Sun and fire cults in the worldview

of Turkic peoples. The traditions of bonfire lighting and the "Qodu-Qodu" ritual are discussed in terms of their social, communicative, and collective ritual functions. The symbolic meaning of fire and the hearth is revealed through proverbs, beliefs, and blessings. The study concludes that "Od Chershenbe" preserves the continuity of ancient mythological thinking, and that the fire cult carries a purifying, protective, and unifying semantic significance.

Keywords: Novruz, "Od Chershenbe", folklore, fire cult, ethnography, bonfire, ritual.

Qədim tarixə malik olan Novruz bayramı Azərbaycan xalqının mühüm təqvim-mərasim bayramlarından biridir. Xalqımız tərəfindən yeni ilin başlanğıcı hesab olunan bu bayram, təbiətin canlanması və firavanlığın simvolu kimi rəmzləşdirilmişdir.

Novruz Azərbaycan xalqının milli bayramlarından biri olaraq, yaradılışın dörd əsas elementi olan su, od, yel və torpaq ətrafında formalaşmış mərasimlərin icrasını əks etdirən qədim ənənələri özündə birləşdirir. Bayramdan öncə, qışın üçüncü hissəsi-çilləsi sayılan Boz ayın (Boz Çillə) ikinci çərşənbəsi Od çərşənbəsi kimi tanınır. Bu çərşənbəyə xalq arasında "üskü (üsgü) çərşənbə", "üskü gecəsi", "ikinci çərşənbə" və yaxud "addı çərşənbə" də deyilir (2, s. 100). Həmin çərşənbənin kökləri, qədim insanların Günəş və oda yönəlik inanclarına əsaslanır. Tarixi mənbələr göstərir ki, odun kəşfindən sonra od insan həyatının mühüm elementlərindən biri olaraq gündəlik həyatı asanlaşdırmaqla yanaşı, ritual və inanclarda da mühüm rol oynamışdır. Od insanları həm vəhşi heyvanlardan, həm də soyuqdan qorumuşdur. Mifoloji rəvayətlər göstərir ki, qədim zamanlarda insanlar nəyə ən çox ehtiyac hiss etmiş və ya nədən daha çox təsirlənmişlərsə, onu müqəddəs olaraq qəbul etmiş və ona aid inanclar, mərasimlər yaratmışlar.

Türkdilli xalqlarda Günəşə, Oda və Atəşə xüsusi inam formalaşmışdır. Seyfəddin Altaylı yazır ki, atəş də eynilə su kimi türklər tərəfindən müqəddəs sayılıb. Dünyanın yaradılması, yaz və atəş arasında bir əlaqənin olduğuna inanılıb (1, s. 85). Deməli, Od türk dünyagörüşündə qədim dövrlərdən etibarən arxaik inanc modeli kimi qəbul edilmiş və tarixi inkişaf prosesində qorunaraq müasir dövrümüzədək gəlib çatmışdır. Xüsusilə Od Çərşənbəsi çərçivəsində odun ritual məzmunu daha aydın şəkildə təzahür edir. Ənənəvi olaraq sözügedən mərasim günü tonqal qalamaq və alovun üzərindən tullanmaqla insanlarda daxili mənəvi təmizlənmə, eləcə də mənfi enerjilərdən azad olma, azar-bezarın, xəstəliyin yandırılması simvolik olaraq həyata keçirilir. Bu günün əsas ideyası odun təmizləyici və qoruyucu gücünə olan etiqadla bağlıdır; inanclara görə, alov insanı mənəvi yükdən xilasolma, şər qüvvələrdən və daxili ağırlıqlardan arındırmaq qüdrətinə malikdir. Digər çərşənbələrdə olduğu kimi, Od çərşənbəsində də insanlar düşünür ki, qazanlar qaynamalı və ocaqlar boş qalmamalıdır. Tonqalın yandırılması həmin ilin istilik, bərəkət və məhsuldarlıqla keçməsinə dair ritualları əks etdirir. Od və alov həm istilik simvolu, həm də yazın gəlişi ilə əlaqəli meteoroloji dəyişiklikləri, havaların isinməsini göstərir.

Bayram mərasimlərində tonqal qalama, od yandırmaq ənənəsi qədim insanların Günəşə və atəşə münasibətdə formalaşdırdıqları sakral inam sisteminə əsaslanır. Etnoqrafik və mifoloji mənbələrə görə tonqal yeni həyatın başlanğıcını, baharın gəlişini və istiliyin bərqərar olmasını simvolizə edən əsas rituallardan biri kimi çıxış edir. Odun qorunması və ona ehtiram göstərilməsi ibtidai icma dövründən etibarən insan cəmiyyətlərinin mədəni davranış modelində mühüm yer tutmuşdur. Qalanan tonqal yalnız məişət ehtiyacının ödənilməsi vasitəsi deyil, eyni zamanda müəyyən sosial və rəmzi məna daşıyan işarə xarakteri daşımışdır. Bu işarələri klassik epik abidə olan "Dədə Qorqud" dastanında da görürük. Dastanda od və işıq anlayışları həm müqəddəslik, həm də birlik və xəbərdarlıq funksiyası ilə əlaqələndirilir. Xalq inanclarında belə bir etiqad formalaşmışdır ki, Günəşə və atəşə göstərilən ehtiram təbiətin daha tez isinməsinə, məhsuldarlığın artmasına və ümumi rifahın təmin olunmasına səbəb olur. Tarixi-etnoqrafik məlumatlara əsasən, qədim dövrlərdə bayram və şad günlər münasibətilə əhaliyə xəbər vermək məqsədilə dağ zirvələrində tonqallar qalanmışdır. Əgər relyef şəraiti dağlıq deyildisə, hündür və diqqətçəkən nöqtələr seçilərək həmin ərazilərdə tonqal qalamaq daha məqsədəuyğun hesab edilirdi. Bu yanaşma tonqalın yalnız ritual-mifoloji deyil, həm də kommunikativ və ictimai funksiya daşıdığını göstərir.

Şad və çətin günlərdə tonqal qalama ənənəsinə dair məlumatlara "Dədə Qorqud" dastanında da rast gəlinir. Dastanda tonqal həm sakral rəmz, həm də ictimai kommunikasiya vasitəsi kimi təqdim olunur. Dastanda Dədə Qorqud Oğuz igidlərinə müraciət edərək bildirir ki, həm şad, həm də çətin günlərdə uca dağ başlarında tonqal qalansın. Bu məqsəd uzaqda olan Oğuz igidlərinin tonqal vasitəsilə baş verən hadisədən xəbər tutaraq müvafiq şəkildə, istər sevincə şərik olmaq, istərsə də yardım göstərmək üçün hərəkətə keçməsini təmin etmək idi. Eyni zamanda odun həm şad, həm də çətin günlərdə yandırılması atəşin müqəddəsliyinə və ictimai həyatda daşıdığı simvolik əhəmiyyətə işarə edir. Beləliklə, dastanda tonqal motivi od kultunun dini-ideoloji mahiyyəti ilə yanaşı, həm də sosial həmrəylik və qarşılıqlı yardım mexanizmi kimi funksional rolunu da əks etdirir.

Novruz mərasim kompleksinə daxil olan ayinlərdən biri də Günəşin çağırılması və istiliyin təmin olunması məqsədilə Od çərşənbəsində icra edilən "Qoduqodu" oyunudur. Bu mərasim təbiət hadisələrinə təsir göstərmək inamından qaynaqlanır. Xalq inanclarına görə, Günəşin çağırılması və onun istiliyinin artması məhsuldarlığın və baharın tezliklə bərqərar olmasının əsas şərtlərindən biri hesab edilmişdir. "Qodu-qodu" oyunu zamanı gənclər üzəri qırmızı rənglə bəzədilmiş çömçəni Günəşin rəmzi kimi götürərək evləri dolaşar, xüsusi nəğmələr oxuyardılar. Qırmızı rəng burada Günəşin və istiliyin simvolu kimi çıxış edir. Qapı-qapı gəzərək nəğmələr ifa etmək isə mərasimin kollektiv xarakterini və insanlar arasında həmrəyliyin möhkəmləndirilməsini təmin edir. Mərasim zamanı oxunan nəğmələr aşağıdakı kimidir:

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?

Qodu burdan ötəndə
Qırmızı günü gördünmü?
***
Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək.
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
***
Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa (6).

Bu mətn nümunəsi göstərir ki, nəğmələrdə Günəş antropomorfik obraz kimi təqdim edilir, ona "gülmək", "ağlamaq" kimi insani xüsusiyyətlər aid edilir. Eyni zamanda mərasim iştirakçılarından yağ, bal və digər nemətlərin istənilməsi isə qədim icmalarda pay vermə və paylaşma ənənələrinin mövcudluğunu əks etdirir. Beləliklə, "Qodu-qodu" oyunu həm mifoloji təsəvvürlərin, həm inancların, həm də kollektiv ritual mədəniyyətinin sintezini özündə birləşdirən mühüm folklor hadisəsi kimi qiymətləndirilə bilər.

Şərur rayonundan toplanmış folklor mətnlərində qeyd olunur ki, "qədimdə yaz gələndə günəşbanu bəzəyərək oxuya-oxuya, oynaya-oynaya günəşin çıxmasını alqışlayaraq qapı-qapı gəzirdilər. Qalın bərk kağızın bir tərəfini sarı rəngə boyayır, qaş, göz çəkər, iplərlə saç düzəldirdilər. Qaş, göz və saçları elə edirdilər ki, günəşə bənzəsin. Sonra bir nəfər həmin Günəşi əlində tutaraq oynadır, pay yığırdılar. Gəzə-gəzə belə oxuyurdular:

Minnətdə koftalısan,
İşgəli baftalısan,
Ay sarı, sarı gəlin,
Elimin varı gəlin,
Ay günəş, günəşbanu,
Günəşim, günəşbanum (4, s. 139).

Od anlayışı kollektiv yaddaşda həm məişət, həm də mənəvi-mifoloji müstəvidə mühüm yer tutur. Tarixən od həyat mənbəyi, istilik və işıq rəmzi olmaqla yanaşı, təhlükə və məhvedici qüvvə kimi də dərk edilmişdir. Bu ikili xarakter arxaik təsəvvürlər sistemində, xüsusilə atalar sözlərində öz aydın ifadəsini tapmışdır. Odla bağlı atalar sözləri əsasən həyat təcrübəsini ümumiləşdirir, insan davranışını tənzimləyən əxlaqi normaları və səbəb-nəticə əlaqələrini obrazlı şəkildə ifadə edir. Aşağıdakı nümunələr odun həm fiziki, həm də rəmzi məna çalarlarını əks etdirərək xalq dünyagörüşünün formalaşmasında mühüm rol oynayır:

Odu su ilə söndürmək günahdır (3, s. 16).
Odsuz ocaq olmaz.
Od ilə oynamaq olmaz.

Od yanan yerdən tüstü çıxar.
Od yanmasa tüstü çıxmaz.
Ocaq keçər, külü qalar.
Oda pənah aparanın ocağı sönməz.
Od qalar, köz olar, qız qalar, söz olar.
Od insanı həm qızdırır, həm də yandırar.
Od ilə pambığın nə dostluğu?
Od olsa, özünü yandırar.Ocağı söndürən çox olar, yandıran az.
Od düşəndə, yaş da yanar, quru da.
Od da sönər sovuyar, gül də solar quruyar.
Odun imanı sudadır.
Od yanan yerdən işıq gələr.
Oddan kül törər, küldən nə törər? (6).

Nümunə göstərilən atalar sözləri odun ənənəvi təsəvvürlərdə həm yaradıcı, həm də dağıdıcı güc kimi qavranıldığını göstərir və həyatın müxtəlif situasiyalarında ehtiyatlılıq, məsuliyyət və müdriklik kimi dəyərləri də təbliğ edir.

Od və ocaq anlayışı xalq inanclar sistemində yalnız məişət elementi kimi deyil, həm də sakral və simvolik məna daşıyan mühüm mədəni göstərici kimi çıxış edir. Tarixən ocaq ailənin birliyi, evin bərəkəti və davamlılığın rəmzi hesab olunmuşdur. Bu səbəbdən odla bağlı formalaşmış inanclar insanların gündəlik həyat davranışlarını tənzimləmiş, müəyyən əxlaqi və sosial normaların qorunmasına xidmət etmişdir. Aşağıdakı nümunələr odun və ocağın xalq təfəkküründə daşıdığı rəmzi məna və mistik çalarları əks etdirir:

Ocaqda kül titrəyəndə od xeyirə oynayır (3, s. 22).
Od çərşəbəsində ocağı boş qoymazlar (3, s. 22).
Ocaq yananda səs çıxırsa, kimsə sözünü danışır.
Od hisli olarsa, uzaqdan qonaq gələcək.
Ocağı dağıdan xeyir tapmaz.
Ocaq sönməyən yerdə məskən salarlar (5).

Bu inanclar göstərir ki, ocaq ənənəvi düşüncə sistemində ailə rifahının, qonaqpərvərliyin və mənəvi sabitliyin simvolu kimi qəbul edilmişdir. Odun yanma forması, tüstüsü və ya külünün hərəkəti belə müəyyən hadisələrin əlaməti kimi yozulmuş, beləliklə, təbiət hadisələri ilə insan həyatı arasında rəmzi əlaqə qurulmuşdur.

Ocaq kultu ailə birliyi və davamlılıq ideyası ilə sıx bağlıdır. Alqış mətnlərində ocaq yalnız fiziki istilik mənbəyi deyil, həm də mənəvi nurun, davamlılığın və xoşbəxtliyin simvolu kimi təqdim olunur. Bu alqışlar ailənin rifahını, sağlamlığını və davamlılığını arzulayan ənənəvi xeyir-dua formaları kimi milli-mənəvi yaddaşda mühüm yer tutur. Aşağıdakı nümunələr xalqın ocaq və od anlayışına verdiyi yüksək dəyəri və xeyir-dua xarakterli münasibətini əks etdirir:

Ocağın odlu, qazanın qaynar olsun.
Ocağınız odlu, eviniz nurlu olsun.
Ağrın, acın odda yansın.

Ocağına nur çilənsin.
Ocağın bərəkətli olsun.
Ocağın sönməsin (5; 6).

Beləliklə, Od çərşənbəsi qədim türk inanc sistemində formalaşmış od kultunun müasir dövrə qədər yaşadığını göstərən mühüm mərasim kompleksidir. Burada od həm kosmik nizamın, həm sosial həmrəyliyin, həm də mənəvi yenilənmənin rəmzi kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Altaylı, S. Novruz və "Ərgənəkon" dastanı arasındakı oxşarlıqlar. Dədə Qorqud jurnalı, 2008, №2, s. 80-86.
2. Xəlil, A. Türk xalqlarının yaz bayramları və Novruz. Bakı: Elm və təhsil, 2012, 144 s.
3. Nəbiyev, A. İlaxır çərşənbələr. Bakı: Azərnəşr, 1992, 112 s.
4. Şərur folklor örnəkləri. I kitab (tərt. Kazımoğlu M., Qasımova F.) Naxçıvan – 2018, Bakı: Əcəmi, 328 s.
5. Vəliyev, Ə. Şəxsi arxivindəki Naxçıvan MR-dan topladığı folklor nümunələrindən.
6. https://kulis.az/xeber/tarix/xeber-17371